**Ölkəmizin Birinci vitse-prezidenti, UNESCO və İSESCO-nun ölkəmizdəki xoşməramlı səfiri Mehriban Əliyevanın rəhbərliyi ilə fəaliyyət göstərən Heydər Əliyev Fondunun həyata keçirdiyi xeyriyyəçilik işləri sərhəd tanımır. Fondun təşəbbüsü ilə yalnız ölkəmizdə deyil, xarici ölkələrdə də saysız-hesabsız xeyriyyəçilik işləri görülüb.**

# Heydər Əliyev Fondu yeni beynəlxalq status qazandı

***Vüqar Rəhimzadə:** ”Hesab edirəm ki, Heydər Əliyev Fonduna xeyriyyəçilik fəaliyyətinə görə belə bir statusun verilməsi tam ədalətli qərardır”*



*”Fond həyata keçirdiyi çoxşaxəli xeyriyyəçilik işləri ilə bu statusu haqq edib”*

Məlum olduğu kimi, fəaliyyətini xeyriyyəçilik prinsipləri üzərində quran və müasir dünya insanının ümid yerinə çevrilən Heydər Əliyev Fonduna Beynəlxalq Xeyriyyəçilik Forumunun "Strateji əməkdaş" statusu verilib.

Məlumatlara görə, "Çin Xalq Xarici Ölkələrlə Dostluq Assosiasiyası" və "Sülh və İnkişaf üçün Çin Dostluq Fondu" tərəfindən Çin Xalq Respublikasının Şencen şəhərində BMT tərəfindən rəsmi tanınan 4-cü Beynəlxalq Xeyriyyəçilik Forumu keçirilib. Tədbirdə Avropa, Amerika və Asiya regionunda fəaliyyət göstərən xeyriyyəçi təşkilatların rəhbərləri və nümayəndələri iştirak ediblər.

Açılış mərasimində çıxış edən Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyasının sədri Li Syaolin tədbirdə ilk dəfə iştirak edən təşkilatlara minnətdarlığını bildirib.

Forumda Heydər Əliyev Fondunun əsas missiyası, ölkədə və xaricdə həyata keçirdiyi layihələr haqqında məlumat verilib. Eyni zamanda, tədbirdə ilk dəfə iştirak edən Heydər Əliyev Fonduna Beynəlxalq Xeyriyyəçilik Forumu tərəfindən "Strateji əməkdaş" statusu təqdim olunub.

Heydər Əliyev Fondu ilə "Sülh və İnkişaf üçün Çin Dostluq Fondu"nun prezidenti, "Çin Xalq Xarici Ölkələrlə Dostluq Assosiasiyası"nın baş katibi Li Xikui ilə görüşdə təşkilatlar arasında əməkdaşlıq perspektivləri və 5-ci Xeyriyyəçilik Forumunun 2020-ci ilin sentyabr ayında Bakıda keçirilməsi məsələsi müzakirə olunub.

Heydər Əliyev Fonduna Beynəlxalq Xeyriyyəçilik Forumunun "Strateji əməkdaş" statusu verilməsini yüksək dəyərləndirən "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə "Bakı-Xəbər"ə bildirdi ki, Mehriban Əliyevanın rəhbərliyi ilə fəaliyyət göstərən, nəinki Azərbaycanda, eləcə də Azərbaycandan çox-çox uzaqlarda xeyriyyəçilik fəaliyyəti göstərən Heydər Əliyev Fondunun belə nüfuzlu statusa layiq görülməsi təqdirəlayiq hadisədir.

V.Rəhimzadə hesab edir ki, Heydər Əliyev Fondu Azərbaycanın dünyada təbliği sahəsində saysız uğurlu layihə həyata keçirib. Azərbaycan xalqının dünya xalqları arasında öz yüksək mədəniyyəti, dəyərləri ilə seçildiyini deyən V.Rəhimzadənin sözlərinə görə, bu dəyərlərin müxtəlif formalarda beynəlxalq ictimaiyyətə təqdim edilməsində Heydər Əliyev Fondunun xüsusi rolu var. Heydər Əliyev Fondunun xeyriyyəçilik istiqamətində olduqca ciddi işlər gördüyünü qeyd edən V.Rəhimzadə bildirdi ki, M.Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun çoxşaxəli fəaliyyətinin əsas istiqamətlərindən biri də mədəniyyətimizin, dövlətçilik ənənələrimizin, tariximizin dünyada təbliğidir. Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması yönündə fondun gördüyü çoxsaylı işlər, keçirdiyi tədbirləri xüsusi vurğulayan V.Rəhimzadə hesab edir ki, Heydər Əliyev Fondu Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə nail olmaq baxımından önəmli missiyanı yerinə yetirir. Azərbaycanın unikal mədəniyyətinin dünyada təbliği missiyasını da Heydər Əliyev Fondunun uğurla həyata keçirdiyini deyən V.Rəhimzadə bildirdi ki, Fondun təşkilatçılığı ilə mötəbər beynəlxalq qurumlarda, dünyanın möhtəşəm şəhərlərində ölkəmizlə bağlı sərgilər, mədəniyyət gecələri və digər tədbirlər keçirilir. Bu tədbirlərin Azərbaycanın dünyada daha yaxından tanıdılması istiqamətindəki xüsusi əhəmiyyəti ilə yanaşı, beynəlxalq ictimaiyyətin də ölkəmizə olan marağının daha da artmasına xidmət etdiyini deyən V.Rəhimzadənin sözlərinə görə, ümumbəşəri dəyərlərə mühüm töhfələr verən M.Əliyeva bu xoş məramı ilə beynəlxalq ictimaiyyətin də böyük hörmət və rəğbətini qazanmağı bacarıb. O qeyd etdi ki, M.Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun sərhəd tanımayan xeyirxah təşəbbüsləri ona dünyada böyük nüfuz qazandırıb. "Heydər Əliyev Fondunun fəaliyyətini Azərbaycan üzrə götürsək, Fond ölkəmizdə müxtəlif sahələrdə humanitar yönümlü layihələr həyata keçirib. Fond bir sıra layihələrin müəllifi, təşəbbüskarı, təşkilatçısı olub. Sosial ehtiyacı olanların təminatında Fondun xüsusi yeri var. Şəhərin abadlaşdırılmasından tutmuş, digər humanist prinsiplərə dayanıq layihələr var ki, onları Heydər Əliyev Fondu reallaşdırıb. Eyni zamanda, M.Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu beynəlxalq aləmdə də saysız humanitar layihə həyata keçirib, xeyriyyəçilik işləri görülüb. Pakistanda və digər ölkələrdə məktəblərin, xəstəxanaların tikintisində, tarixi şəxsiyyətlərə abidələr ucaldılmasında, muzeylərin, məbədlərin əsaslı şəkildə təmir-bərpa edilməsində, eləcə də digər humanitar layihələrdə Fond yaxından iştirak edib. Heydər Əliyev Fondunun xeyriyyəçilik missiyası sərhəd tanımır. Fond tərəfindən Pakistanda, Cibutidə, Bosniya və Herseqovina, Misir, Hindistan, Haiti və digər ölkələrdə həyata keçirilən xoşməramlı aksiyalar dünyada Azərbaycana olan rəğbəti daha da artırır. Həmçinin, dünyada mədəni irsin qorunması, tarixi-mədəni abidələrin və mədəniyyət obyektlərinin bərpası Fondun fəaliyyətində mühüm istiqamətlərdən birini təşkil edir. Bu sahədə görülən işlər, həyata keçirilən layihələr Azərbaycanın mədəni əlaqələrinin möhkəmlənməsində də müstəsna rola malikdir".

Fondun Strasburq Kafedral Kilsəsinin XIV əsrə aid olan beş pəncərəsinin, Versal Sarayının parkındakı "Amazonka"nın və "Qulpları favn başları ilə bəzədilmiş vaza"nın, Fransada X-XII əsrlərə aid 7 kilsənin, Bolqarıstanın Veliko Tırnovo şəhərində yerləşən "Trapezitsa" Memarlıq Muzeyi Qoruğunun bərpasını, Romanın Kapitolini muzeyinin "Filosoflar zalı"nın təmirini həyata keçirən Heydər Əliyev Fondu Parisin Luvr muzeyində İslam incəsənətinə həsr olunmuş yeni zalların yaradılmasında iştirak etdiyini, həmçinin, İkinci Dünya Müharibəsi illərində dağıdılmış və yandırılmış Berlin qəsrinin bərpası təşəbbüsünə qoşulduğunu və s. xeyriyyəçilik işlərini qeyd edən V.Rəhimzadə hesab edir ki, Heydər Əliyev Fonduna Beynəlxalq Xeyriyyəçilik Forumunun "Strateji əməkdaş" statusu verilməsi tam ədalətli bir qərardır: "Hesab edirəm ki, Heydər Əliyev Fonduna xeyriyyəçilik fəaliyyətinə görə belə bir statusun verilməsi tam ədalətli qərardır. Fond həyata keçirdiyi çoxşaxəli xeyriyyəçilik işləri ilə bu statusu haqq edib".

***İradə SARIYEVA***